***Əmirşaxova Sevda Hüseynağa qızı***
*(AMEA Arxeologiya və Etnoqrafiya Institutunun dissertantı)*
e-mail: sevda.emirsahova@mail.ru

**UOT - 394.014**

# MÜASİR ŞƏHƏR EVLƏRİNİN ETNİK XÜSUSİYYƏTLƏRİ MƏSƏLƏSİNƏ DAİR (SUMQAYIT ŞƏHƏRİ MATERİALLARI ƏSASINDA)

**Açar sözlər**: şəhər, mənzil, interyer, etnik xüsusiyyət, məişət əşyaları

**Ключевые слова**: город, квартира, интерьер, этническая особенность, предметы быта

**Key words**: city, apartment, interior, ethnic peculiarities, houseware

Yaşayış evi maddi mədəniyyətin əsas struktur elementlərindən olaraq etnoloji araşdırmaların aktual məsələlərindən biri olaraq qalır. Burada müasir şəhər mənzillərində etnik xüsusiyyətlərin əks olunmasını qeyd etmək lazımdır. Bir çox tədqiqatçıların gəldiyi nəticəyə əsasən etnik mədəniyyətin tərkib hissəsi olan maddi mədəniyyətdə ümumdünya prosesi olan qloballaşmanın təsiri altında etnik xüsusiyyətlər tam olaraq itmir, yalnız öz varlığını mənalar, simvollar sistemində göstərir (8, 237). Həqiqətən də müasir şəhər mənzillərin standartlaşmış xarici görünüşlərinə baxmayaraq, onların interyerlərinin quruluşunda, rəng qammasında yerli xüsusiyyətlər nəzərdən qaçmır (4, 130).

Etnoloji baxımdan yaşayış evinin interyerini, müxtəlif əşyalar düzümünü tədqiq edilməsi fərqli yanaşmalar nəzərdə tutur. Belə bir yanaşmalardan biri müasir yaşayış evinin əşya düzümü ilə ənənələrin qarşılıqlı əlaqəsi məsələsidir. Bu problemə müxtəlif baxışlar mövcuddur. Bunun səbəbi qeyd olunan qarşılıqlı əlaqənin bir mənalı olmamasıdır. Məsələn, əgər yaşayış evində etnosa xas olan funksional proseslər gedirsə (ənənəvi ailədaxili münasibətlər, dini mərasimlər, yaşlıların mövcudluğu), onda bu proseslərin ev əşyaları ilə təmin olunması çox zaman ənənələrə müvafiq olur (2). Lakin, başqa bir yanaşmaya əsasən müasir yaşayış evinin interyerində ənənələr özünü yalnız hansısa konkret mərasimlər zamanı təzahür edir (2). Məsələn, toy mərasiminin keçirilməsi üçün lazım olan əşyalar. Burada kəllə qəndi, xüsusi güzgünü, xonçaları qeyd etmək olar.

Etnologiyada bir qayda olaraq mədəniyyəti iki əsas kompleksa bölürdülər – maddi və mənəvi mədəniyyətə. Bu bölgüyə əsasən yaşayış evləri maddi mədəniyyətin tərkib hissəsi kimi çıxış edir. Lakin son illərdə maddi mədəniyyətə və xüsusilə yaşayış evlərinə həsr olunmuş etnoloji tədqiqatlarda maddi və mənəvi mədəniyyət arasında sərhəd aradan götürülməkdədir (6, 6). Belə ki, yaşayış evi və onun interyeri, daxildəki əşyalar etnik xüsusiyyətlərin maddiləşmiş təzahürləridir. Və burada mənəvi mədəniyyətə aid olan ənənəvi təsəvvürlər də öz əksini tapır. Bu yanaşmaya əsasən etnik xüsusiyyətlər müasir yaşayış evlərinə aid edilə bilər. Beləliklə, yaşayış evinin interyerində ənənə insanın əşya mühitilə simvolik, məzmun və utilitar qarşılıqlı münasibətlərində əks olunur (7, 176).

Qeyd edilməlidir ki, Azərbaycan üçün ənənəvi olan yaşayış evlərinin interyerində müxtəlif məqsədlər üçün düzəldilmiş divar açırımları (taxça, zeh və ya rəf (ləmə), divar şkafı, yük yeri, dolab, buxarı və s.) mühüm əlamət idi. Belə evlərdə ailə məişəti üçün səciyyəvi olan bütün proseslər (yemək, yatmaq, dincəlmək, ev məişəti işləri və s.) döşəmə üzərində həyata keçirildiyindən, onun səliqəli düzəldilməsinə xüsusi fikir verilirdi. Adətən, döşəmə saman qatılmış palçıqla qalın suvanır, suvaq quruyandan sonra onun üzərinə və divarlara ağ gildən şirə çəkilirdi. Şirələnmiş döşəməyə ev sahibinin maddi imkanından asılı olaraq keçə (garbıt), palaz, cecim, həsir (tumu-püzətumu, lığ tumu), ki-

lim, xalça, gəbə və s. salınır, üzərinə aşılanmış qoyun dərisindən ayaqaltılar qoyulur, mütəkkə, balış və döşəkçələr (nalça, nimdər) düzülürdü (1, 82). Azərbaycan xalq yaşayış evlərinin daxili sahmanında mühüm məişət elementlərindən biri yük yerinin (camaxatanın) olması idi. Müasir şəhər yaşayış evlərinin interyerində yuxarıda qeyd olunan bəzi elementləri müşahidə etmək olar. Məsələn, müasir mənzillərdə döşəmənin üstünə kilim, xalça, gəbə və s. salınır. Çox zaman bunlar funksional əhəmiyyət yox, simvolik məna daşıyırlar.

Bir çox tədqiqatların nəticələrinə əsasən yaşayış evlərinin təşkilində xalqların mentalitetinin xüsusiyyətləri əks olunur. Belə ki, praqmatik amerikalılar evlərin maksimal funksionallıqına can atırlar. Bu baxımdan təsadüfi deyil ki, onlar tez-tez qonaq otağı ilə mətbəxi birləşdirirlər. Skandinav xalqlarının evlərində isə onlara xas olan təmkinlik əks olunub. Düzbucaqlı, geniş otaqlar ən zəruri mebel dəsti ilə düzülür. Bu baxımdan skandinav interyeri çox boş yeri və az əşyaları olan yapon interyerini xatırladır. Yapon estetikası "bütün artıq olan eybəcərdir" prinsipini israr edir. Onlara görə boşluq daxili interyerin incəliyinə xüsusi əhəmiyyət verir. Bütün ev ləvazimatını yaponlar adətən divar şkaflarında saxlayırlar (5, 46).

Etnik xüsusiyyətlərin yaşayış evinin daxili quruluşuna təsirini konkret misallarla nəzərdən keçirilməsi məqsədə uyğundur. Bu baxımdan Sumqayıt şəhərinin yaşayış evlərindəki etnik ənənə ilə interyerin əlaqəsinin araşdırılması marağlı tədqiqat problemidir. Bu problemin aktuallığı Sumqayıtın əhalisinin formalaşma xüsusiyyətlərilə, onun ölkə həyatında mədəni və industrial əhəmiyyətilə şərtlənir.

Şəhərin artım dinamikası, təbii olaraq, müxtəlif bir-biri ilə əlaqəli problemlərin meydana gəlməsini şərtləndirdi. Belə ki, şəhərin 1949-cu ildə salınmasından sonra yaşayış evlərinə tələbatın artması tikinti həcminin artmasını şərtləndirdi, bu isə öz növbəsində yaşayış evlərinin tikintisində ənənələrin pozulmasına və hətta itirirlməsinə səbəb olurdu. Apardığımız tədqiqat belə bir qənaətə gəlməyə əsas verir ki, Sumqayıt əhalisini təşkil edən ayrı-ayrı sosiomədəni qruplar arasında intensiv qarşılıqlı təsirə baxmayaraq, hal-hazırda şəhərdə formalaşmış şəhər mədəniyyəti və həyat tərzinin vahid stereotipləri müşahidə olunmur. Buna görə də yaşayış evlərinin interyerinin quruluşu çox zaman əhalinin ayrı-ayrı qruplarının xüsusiyyətlərinə və ənənəvi təsəvvürlərinə uyğun olmur.

Sumqayıt şəhərinin müxtəlif hissələrində aparılan etnoqrafik müşahidələr göstərir ki, evlərin daxili quruluşunda ayrı-ayrı əhali qruplarının etnomədəni fərqləri müəyyən rol oynayır. Belə ki, interyerin bəzi xüsusiyyətləri əhalinin Sumqayıta miqrasiyasının dövründən, bölgəsindən və etnomədəni mənsubiyyətindən müəyyən dərəcədə asılıdır. Müxtəlif dövrlərdə, müxtəlif bölgələrdən Sumqayıta köçənlər öz etnomədəni xüsusiyyətlərini saxlayaraq eyni zamanda şəhərə xas olan urbanistik cəhətləri də qavramış olurlar və bu da özünü evlərin interyerində biruzə verir. Məsələn, Sumqayıt şəhərinin ilk dövrlərində Bakıdan və Azərbaycanın başqa şəhərlərindən miqrasiya etmiş əhali özlərinin artıq formalaşmış mədəni-məişət ənənələrini qoruyub saxlayırdılarsa, kənd yerlərindən köçüb gələn əhali şəhər mühitinə uyğunlaşmağa çalışaraq urbanistik davranış qaydalarını, o cümlədən evlərin daxili quruluşundakı şəhər elementlərinin, mənimsənilməsinə çalışırdılar.

Sumqayıtda aparılan etnososioloji sorğu zamanı respondentlərə yaşayış evinin interyeri haqqında da sual verilirdi. Belə ki, respondentlərdən "həmişə istifadə etdikləri ev əşyaları arasında yalnız Azərbaycan xalqı üçün səciyyəvi olan əşyalar varmı" sualı soruşulurdu. Sorğunun nəticələrinə əsasən respondentlərin 72,3%-i belə bir əşyaların evlərində olmasını qeyd ediblər. Bu suala müsbət cavab verənlər arasında Azərbaycan xalqı üçün səciyyəvi olan məhz hansı əşyalanın evdə olmasına cavablar əsasən iki qrupda cəmləşir. Birinci qrupda yalnız xalçanı qeyd edən respondentləri cəmləşdirmək olar. Evlərində Azərbaycan xalqı üçün səciyyəvi olan əşyalar haqqında müsbət cavab verənlərin 97,6% yalnız xalçanı qeyd etmişlər. İkinci

qrupa isə həm xalçanı, həm də hansısa başqa bir əşyanı qeyd edən respondentlər daxil edilmişdir. Bu qrup Azərbaycan xalqı üçün səciyyəvi olan əşyalar haqqında müsbət cavab verənlərin 43,2%-i təşkil etmişlər. Xalçadan savayı bu respondentlər əsasən sandığı, taxçanı, döşəkçələri qeyd etmişlər.

Müşahidələr göstərir ki, ümumilikdə mənzillərin interyeri və konkret olaraq onların etnik xüsusiyyətləri çox zaman yaşayış evlərinin tipindən asılı olur. Sumqayıt şəhərinin yaşayış evləri arasında müasir dövrdə dörd əsas tip fərqləndirmək olar: ənəvi fərdi evlər (həyət evləri), sovet dövründə inşa edilən çoxmənzilli evlər, müasir çox mərtəbəli evlər (novostroyka) və malikanə tipli müasir şəxsi evlər. Bu tiplərin hər birində xüsusiyyətlərinə uyğun interyer tipləri mövcuddur. Fərdi evlərin öz xüsusiyyətlərinə görə ənənəvi Azərbaycan yaşayış evləri ilə oxşarlıqı çoxdur. Burada otaqların bir sırada yerləşmə prinsipini, onların adətən eyvana çıxışını qeyd etmək olar. Eyni zamanda bu evlərin planlarının kompozisiya baxımından düzbucaqlı formada həlli oxşarlıqı vurğulayır. Belə evlərin quruluşunda xüsusi əhəmiyyət kommünikasiya yerləri kəsb edirdi. Praktiki yeganə olan kommunikasiya yeri – açıq qalereya idi. O eyni zamanda müxtəlif funksional zonalar ilə əlaqə rolunu, ev ilə həyət arasında keçid rolunu və nəhayət özünə məxsus funksiyası olan əlavə məkan rolunu oynayır.

Sumqayıt şəhərində ənəvi fərdi evlərin (həyət evlərinin) səciyyəvi cəhətlərindən biri də ev ilə həyət arasında bilavasitə əlaqənin olmasıdır. Müşahidələr göstərir ki, ev ilə həyət arasında funksional və psixoliji bölgü yoxdur. "Mənim evim" anlayışı altında həm ev, həm də ki, həyət başa düşülür. Məhz bu səbəbdən, çox guman, belə həyətlər müəyyən mebel əşyaları ilə quraşdırılır.

Bu evlərdə müvafiq əşya mühiti formalaşır. Bir tərəfdən, ənənəvi Azərbaycan xalq yaşayış evinin səciyyəvi xüsusiyyətlərini təkrar edir, o biri tərəfdən müaisr urbanistik elementlərin təsiri altında formalaşan müasir Azərbaycan şəhər evlərinin interyerinin özünə məxsus cizgiləri əks etdirir. Belə ki, evlərin əşya mühitinin dayanaqlıqı öz əksini əşyaların təkcə konstruktiv və formal həllində deyil, həmdə onların funksional və simvolik mənalarında tapır. Çox guman ki, bu xüsusiyyət ətrafdakı əşyalar haqqında hansısa etnik təsəvürlərlə bağlıdır. Misal kimi Azərbaycan ənənəvi evləri üçün səciyyəvi olan taxçaları, yük yerlərini, bəzən isə ocaqları, döşəmələrin üstündəki və ya divardan asılan xalçaları qeyd etmək olar.

Müasir evlərin (həm Sovet dövründə, həm də ki müasir dövrdə inşa olunanlar nəzərdə tutulur) interyeri, dizaynı əsasən qərb ənənəsinə müvafiq olsa da bir çox etnik elementləri saxlamaqdadır. İmkan daxilində qonaq otağının olması, yataq otaqlarının ayrı və nisbətən qapalı saxlanılması belə elementlərdəndir. Müasir evlər daha çox hündür, işıqlı olur, hər bir rahatlıq təmin edilir. Sumqayıtlılar evlərini təmir etdirərkən dəbə uyğun, lakin zövqlərinə müvafiq interyerə, dizayna üstünlük verirlər. Evlərin giriş qapısı əsasən dəmirdən olmalı, həyət evlərində və aşağı mərtəbələrdə isə pəncərələrə dəmir şəbəkələr qoyulmalıdır. Sovet dövründə inşa edilmiş binalarda darısqallıq olduğundan birinci mərtəbədə yaşayan bir çox sakinlər həyətlərdə əlavə tikililər tikmiş, binanın ümumi görünüşünü pozmuşlar. Balkonların örtülməsi və otaqların balkonlarla birləşdirilməsi az qala hər bir mənzildə mövcuddur.

Müasir evlərin dizaynında rahatlıq, gözoxşayan bəzəklər və əşyaların yerləşdirilməsi mühüm yer tutur. Evlərin tavanı əsasən asma tavan və alçipandan, döşəməsi taxta, dikt, parket və ya laminat parketdən hazırlanır. Divarlar zövqə uyğun rənglənir, ya da divar kağızları ilə örtülür. Otaqların qapıları bir qayda olaraq yarıya qədər şüşəli olur. İmkandan asılı olaraq qapılar taxtadan (şam, palıd, qoz, şabalıd və s.) və süni materiallardan hazırlanır. Pəncərələr çox vaxt alüminium və plastik materialdan qoyulur. Belə pəncərələr Sumqayıt mühitində evi yağış və küləkdən daha etibarlı qoruyur. Pərdələr evlərin interyerində əsas aksessuarlandandır. Hər bir otağın pərdəsi divarların rənginə və ayrıca zövqə uyğun olaraq seçilir. Müşahidələr göstərir ki, sumqa-

yıtlılar bir çox zamanda tünd rəngli pərdələrə üstünlük verirlər buda müəyyən dərəcədə Azərbaycan etnik mədəniyyətinə xas olun bir xüsusiyyətdir.

Sumqayıtlıların evlərində, hər bir şəhərlilərdə olduğu kimi, mebel dəstləri və digər məişət əşyaları mühüm yer tutur. Qonaq otağı mebeli, yataq otağı mebeli, mətbəx mebeli kimi müxtəlif dəstlər imkandan asılı olaraq müasir evləri bəzəyir. Eyni zamanda qeyd edilməlidir ki, mebel dəstlərinin, xüsusilə qonaq və yataq otağları üçün, seçimində üstünlük əsasən çox əşyalı, tünd rəngli və bir qayda olaraq şərq (ərəb) üslubuna verilir. Məsələn, bu mebel dəstlərində şərq ornametlərinin olması, oturacaqların əlvan, bahalı təəssuratı bağışlayan parça ilə örtülməsi, müxtəlif döşəkçələrin olması və s. bu üslubun göstəriciləridir. Bunu da, öz növbəsində, interyer quruluşunda azərbaycanlılara xas olan ənənəvi stereotiplərin təzahürü kimi qəbul etmək olar.

Qonaq otağı müasir dövrdə də evin ən mühüm hissəsi sayılır. Ən qiymətli mebel, görkəmli əşyalar və qablar məhz bu otaqda saxlanılır. Müşahidələr göstərir ki, mebel üstündə düzülən bahalı qablar öz əsas funksional təyinatından daha çox simvolik əhəmiyyət daşıyır. Onlar bir növ maddi təminatın səviyyəsinin göstəricisi kimi çıxış edir. Eyni zamanda televizor, musiqi mərkəzi adətən burada qoyulur. Divan və kreslolar, stol və stullar qonaq otağının əsas əşyaları hesab olunur.

Yataq otağı nisbətən qapalı saxlanılır.Yalnız yaxın qohumlar yataq otağına girə bilər. Bu, şəhər şəraitində milli ənənələrin saxlandığını göstərən bir amildir. Belə ənənələrin saxlandığını göstərən həm də otaqların döşəməsinin və divarlarının xalça və kavrolitlə örtülməsidir. Bəzi evlərdə isə hətta Azərbaycan ənənəvi yaşayış evlərinə xas olan sandıqları görmək olar. Onlar adətən cehizin bir hissəsi kimi saxlanılır və çox zaman nəsildən-nəsilə ötürülür.

Evlərin interyerinin boya baxımından həlli də xüsusi əhəmiyyət kəsb edir. Əksər hallarda otaqların divarları yağlı boya ilə və ya kağız ilə örtülür. Lakin, qeyd etmək lazımdır ki, divarların işlənilməsi böyük bir əhəmiyyət kəsb etmir, çünki əsas boya qamması müxtəlif xalçalar, pərdələr, bəzi əşyaların, mebel elementlərinin rəngi təşkil edir. Beləliklə, divarlar, müəyyən dərəcədə, müxtəlif rəngli əşyalar üçün fon rolunu oynayır.

Qeyd etmək lazımdır ki, rənglərin seçimi çox zaman insanların mənsub olduğu etnik mədəniyyətlə şərtlənir. Bu səbəbdən interyerə böyük təsir edən amillərdən biri də ölkənin coğrafi vəziyyətidir (3). Məsələn, işıqlı, isti ölkələrdən olan insanlar bir qayda olaraq interyerdə əlvan rənglərin olmasına üstünlük verirlər. Maraqlıdır ki, oxşar rəngləri şimal xalqaları, məsələn skandinavlar, daha tez-tez seçirlər. Lakin bu seçim başqa səbəbdən irəli gəlir. Təbii günəş işıqının çatışmazlıqı bu ölkələrdə sarı, ağ rənglərini populyar etmişdir. Ola bilsin ki, azərbaycanlıların rəng seçiminə ölkənin Avropa və Asiya qovşağında yerləşməsi təsir etmişdir. Bu səbəbdən də Azərbaycan ənənəvi mədəniyyətində şərq ənənələri ilə qərb ənənələri qarışır. Belə ki, evlərin interyerində azərbaycanlılar həm şərq mədəniyyətlərinə xas olan əlvan rənglərə, həm də ki, daha çox qərb mədəniyyətində rastlaşan qara, ağ, boz rənglərindən istifadə edirlər.

Sumqayıt şəhərinin əhalisinin əsasən miqrantlardan formalaşmasını nəzərə alaraq qeyd etmək olar ki, burada şəhər mədəniyyətinin formalaşması dayanaqlı etnik ənənələrin dəyişməsi ilə müşahidə olunur. Bu dəyişikliklər qeyri-bərabər baş verirdi. Müntəzəm baş verən kütləvi miqrasiyalar şəhər əhalisinin mədəni-məişət səciyyələrinə vaxt aşırı düzəlişlər edirdi. Şəhər əhalisinin müxtəlif qrupları arasında mədəni-məişət fərqləri və şəhər daxilində güclü birləşdirici mərkəzin olmaması nəticəsində Sumqayıtda bir neçə mərkəz formalaşmışdır. Müxtəlif miqrasion qrupların inteqrasiyası nəticəsində ənənəvi davranış qaydalarının ikili forması əmələ gəlmişdir. Bir tərəfdən, bütün miqrasion qruplar üçün səciyyəvi olan şəhər həyat fəaliyyətinin ənənəvi xüsusiyyətləri formalaşır, o biri tərəfdən, qrup daxili qarşılıqlı əlaqələr möh-

kəmlənir və ənənələrin anlamasına və qavramasına meyllər artır.

Bu səbəbdən irəli gələrək Sumqayıt şəhərində evlərin daxili quruluşunun etnik xüsusiyyətlərini tədqiq edərkən ənənələr ilə evlərin interyerinin bir neçə tip qarşılıqlı əlaqələrini fərqləndirmək olar. Birinci tip təzahür – bu simvolik təzahürdür. Buraya ilk, utilitar əhəmiyyətini itirmiş və insanların etnik mənsubiyyət simvollarına çevrilmiş əşyalardır. Belə bir dəyişmə prosesini biz məcməyilər nümunəsində görə bilərik. Ənənəvi yaşayış evlərinin əşyaları içində məcməyi eyni zamanda firavanlıq simvolu kimi, insanın sosial mənsubiyyəti göstəricisi kimi, firavanlıq və qayğısız həyat haqqında arzuların simvolu kimi çıxış edirdi. Müasir evlərdə məcməyilər ilkin simvolik əhəmiyyətlərini itirmiş, lakin başqalarını əldə etmişlər. Müasir insanların şuurunda onlar etnik mənsubiyyət və ənəvilik anlayışları ilə assosiasiya olunur və onların simvoluna çevrilir. Lakin, əgər ilkin simvolik məna əşyanın utilitar təyinatı ilə üst-üstə düşürdisə, yeni keyfiyyət əldə etdikdə bu əlaqə pozulur. Beləliklə, insanın etnik mənsubiyyət simvoluna əşyanın özü yox, onun simvolik məzmunu çevrilir.

Etnik ənənələrin ikinci tip təzahürü – bu insanın ayrı-ayrı əşyalara münasibətidir. Bu halda etnik ənənələr əşyaların konkretikasında yox, onların şəxs tərəfindən qavranmasında, dərk edilməsində, ənənəvi dəyərlər haqqında təsəvvürlərlə assosiativ əlaqədə, və nəhayət bu etnosa xas olan ənənəvi yaşayış evi anlamı ilə müqaisə etmədə təzahür edir. Məsələn, burada nəsildən nəsilə keçən və haçansa müəyyən utilitar funksiyanı yerinə yetirən mis qabları, lampaları və s. qeyd etmək olar. İnsanlar üçün bu əşyalar konkret insanlar, yaşayış evləri, "kiçik vətən" və s. haqqında xatırlamalardır.

Sumqayıt şəhərinin müxtəlif miqrasion qruplarının, xüsusilə başqa şəhərlərdən gəlmişlərin, yaşayış evlərininin interyerində etnik ənənələrinin məhz ikinci tipi daha çox özünü göstərir. Məsələn, vaxtı ilə Azərbaycanda kənarda yaşayanlar, müxtəlif cür interyer sahəsində yeniliklərə daha açıqdırlar, nəinki kənd miqrantları. Onların təsəvvürlərində qeyri-ənənəvi əşyaların istifadəsi etnik ənənələrdən kənara çıxmaq deyil. Əksinə bu əşyaların köməyilə onlar müxtəlif etnik adət-ənənələri, mərasimləri yerinə yetirirlər. Beləliklə, bu əşyalara, etnik qrupun mövcud ənənələrinə uyğun olan yeni simvolik məna verillir. Məsələn, kürsünün ailənin bir məkanda toplaşdığı yer kimi simvolik mənasını, müasir dövrdə böyük, qonaq otağındakı masa yerinə yetirir.

Şəhər həyat tərzinin xüsusiyyəti ondan ibarətdir ki, yaşayış evinin əşya mühitinin ənənəviliyi yalnız ənənəvi yaşayış evinə xas olan əşyalar və ləvazimat ilə bağlı deyil. Şəhər həyat tərzində bu və ya digər mərasimin ənənəviliyi çox zaman ənənəvi əşyalar ilə təsdiq olunmur. Ənənəvilik adətlərin, mərasimlərin özündə təzahür edir. Ənənəvi əşyalar ilə təminat isə müasir əşyalarla tərtib olunur. Bu baxımdan şəhər və "saxta şəhər" həyat tərzi arasında müəyyən fərqlər mövcuddur. Bu fərqlər ondan ibarətdir ki, müasir əşyaların şəhər həyat tərzi nümayəndələrinin evlərində yeni məzmun əldə etməsi daha sürətli baş verir nəinki saxta şəhər həyat tərzi nümayəndələrinin evlərində.

Sumqayıtda müasir yaşayış evlərinin əşya mühitinin formalaşmasına təsir edən amilləri, bu amillərin ənənəvi yaşayış evlərinin əşya mühiti ilə qarşılıqlı əlaqələrinin müəyyənləşdirmək üçün sorğu vərəqinə müvafiq suallar daxil edilmişdi. Sorğunun nəticələri Sumqayıtda müasir yaşayış evlərinin daxili quruluşuna etnik ənənələrin təsirini, əhalinin ənənəvi əşyalara münasibətini müəyyənləşdirməyə imkan verir.

Sorğunun nəticələrinə əsasən müəyyən olunmuşdur ki, şəhər yaşayış evlərinin daxili quruluşuna təsir edən bir neçə amil mövcuddur. Belə amillərə yaşayış evinin yerləşmə rayonu (mərkəz-periferiya), evin tipi (köhnə fərdi evlər, sovet dövrünün çoxmənzilli binaları, müasir fərdi evlər və müasir çoxmərtəbəli binalar), həyətin olub-olmaması, onun quruluşu, mənzilin sahəsi və s. Bu amillərdən sumqayıtlıların yaşayış evlərinin interyerində etnik ənənələrin dayanaqlıqı asılıdır. Etnik

ənənələrin müəyyən olunmuş amillərdən asılılıqı və bu asılılıqın şəhər sakinlərinin həyat tərzi, onların sosial və miqrasion mənsubiyyəti, cinsi və yaşı baxımından öyrənilməsi sumqayıtlıların öz evlərinin interyerini qurarkan istəklərini və etnik ənənələrə münasibətini aşkarlamağa imkan vermişdir.

Sorğu zamanı toplanan məlumatları ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar:

- Sumqayıt sakinləri arasında ənənəvi olan həyətlərə yaşayış evlərinin, mənzillərin təbii davamı kimi münasibət müşahidə olunur. Bu baxımdan həyət məkanının iki tip qavranmasını fərqləndirmək olar. Birinci tip – həyət yaşayış evinin struktur komponenti kimi, "tavansız otaq kimi" qavranır. Belə həyətlərdə məkanın funksional bölünməsi olmur. Bu həyətlər konkret stasionar ləvazimatla təmin olunub;

İkinci tip – həyət müəyyən yarım mənimsənilmiş məkan kimi qavranır. Belə həyət müəyyən şəraitdə, məsələn təsərrüfat-məişət proseslərində mənzilin məkanına birləşir, lakin bu proseslər bitəndən sonra ümumi və ya özgə əraziyə çevrilir;

- ümumilikdə sorğuya cəlb olunan Sumqayıt əhalisin əksəriyyəti evlərinin interyerinin etnik ənənələrə uyğun olmasını arzu edirlər. Lakin, reallıqda isə ənənəvi mədəniyyətə uyğun interyerin yaradılması soruşulanların böyük əksəriyyəti üçün seçimin əsas meyyarı kimi çıxış etmir;

- sorğunun nəticələrinə əsaslanaraq qeyd etmək olar ki, sumqayıtlıların yaşayış evlərinin interyerində müşahidə olunan ənənəvi xüsusiyyətlər onlar tərəfindən məhz ənənə kimi qavranmır. İnteryerin ənənəviliyini Sumqayıt sakinlərinin bir çoxu bəzi əşyaların xarici görünüşündə və onların funksional təyinatında görür. Burada yaşayış evlərinə qorunub saxlanılmış ənənəvi yaşayış evlərinə xas olan əşyalar (sandıq, xalça, döşəkçə və s.) və onların müasir istehsalatda hazırlanan analoqları nəzərdə tutulur.

Aparılan tədqiqatlar nəticəsində müasir yaşayış evinin əşya mühiti ilə etnik ənənələrin qarşılıqlı əlaqələrinin spesifik xüsusiyyətləri müəyyənləşdirilmişdir. Bu qarşılıqlı əlaqələrinin əsas xüsusiyyəti ondan ibarətdir ki, nə dərəcədə ənənələr evlərin əşya mühitinin formalaşmasına təsir edirsə, bir o qədər də mühit ənənələrin məzmununa və dayanaqlığına təsir edir. Müasir şəhər evlərində ənənələr ilk növbədə əşyaların mənalarında və ümumiyyətlə əşya mühitinin məzmununda təzahür edir.

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, əşya mühitində ənənələrin təzahür edilməsi əsasən sosial və regional mənsubiyyətdən, mədəni səviyyədən, insanın həyat tərzindən asılıdır. Göstərilən amillərdən asılı olaraq evlərin əşya mühitində ənənə təzahürlərinin bu və ya digər növləri müşahidə olunur. Bu amillər sırasına həmçinin evlərin tipini də (özəl, dövlət), mərtəbəni və ümumiyyətlə evin neçə mərtəbə olmasını, otaqların sayı və ölçüləri də aid etmək olar.

Müasir mənzillərin interyerində etnik xüsusiyyətləri araşdırarkan belə bir nəticəyə gəlmək olar ki, evlərin əşya mühitində təzahür edən etnik ənənələr çox zaman insanlar tərəfindən məhz etnik ənənələr kimi dərk edilmir. Dərk edilən zaman isə onlar etnik mənsubiyyətin simvollarına çevrilir, etnik ənənələrə aid olmasını göstərən əlamət, simvol olurlar. Sumqayıt əhalisinin əksəriyyətinin mənzillərində ənənəviliyi ayrı-ayrı əşyaların keyfiyyətlərində görmələri bəzi ənənələrin və onlara müvafiq əşyaların insanların etnik ənənələrə cədaqətliliyini göstərən əlamət, simvollara çevrilməsinin nəticəsidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan etnoqrafiyası III cilddə. Cild II. Şərq-Qərb, Bakı, 2007, 384 s.
2. Домовитая К. Этнический стиль в интерьере // http://www.tekhouse.ru/reports/interier/etnika-stile-interior
3. Ермаков А. Особенности национального интерьера: почему Россия не Европа // http://realty.mail.ru/articles/6036/
4. НТР и национальные процессы. Москва, Наука, 1987, с.130. 248 с.
5. Пронников В.А., Ладанов И.Д. Японцы. Москва, Наука, 1985, 351 с.

6. Свод этнографических понятий и терминов. Вып.3, Москва, Наука, 1989, 223 с.
7. Современные этнические процессы в СССР. Москва, Наука, 1977, 562 с.
8. Этносоциальные проблемы города (Под ред. Шкаратана О.И.). Москва, Наука, 1986, с.237.

***Амиршахова Севда Гусейнага гызы***

## К ВОПРОСУ ЭТНИЧЕСКИХ ОСОБЕННОСТЕЙ СОВРЕМЕННЫХ ГОРОДСКИХ ДОМОВ (НА ОСНОВЕ МАТЕРИАЛОВ ГОРОДА СУМГАЙЫТА)

### *РЕЗЮМЕ*

В статье сделана попытка исследовать некоторые этнические особенности современного городского жилища на примере города Сумгайыта. Материальная культура, как одна из структурных элементов традиционной культуры этноса, под влиянием глобализации внешне теряет свою этничность. Вместе с тем, согласно многочисленным исследованиям, этничность материальной культуры не исчезает полностью, а только проявляется в системе значений, символов. Несмотря на стандартизированный внешний облик современного городского жилища, в их интерьере, цветовой гамме заметна местная, этническая специфика.

***Amirshakhova Sevda Guseynaga qizi***

## ABOUT ETHNICAL PECULIARITIES OF MODERN URBAN HOUSES (BASED UPON THE MATERIALS OF TOWN SUMGAIT)

### *SUMMARY*

This article attempts to study some ethnical peculiarities of modern urban dwelling on the example of town Sumgait. Tangible culture, as one of structural elements of the traditional culture of ethos, loses its ethnicity under the influence of globalization. At the same time, numerous studies demonstrate that the ethnicity of tangible culture does not disappear fully, but is only displayed in the system of meanings, symbols. Despite the standardized exterior of the modern urban dwellings, local, ethnic specificity is evident in their interior and color gamma.